# Kəhrizlidə bir ev var...



AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli Ağcabədi rayonunun Kəhrizli kəndində görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi Cəlil Məmmədquluzadənin sadiq silahdaşı və tale ortağı Həmidə xanım Məmmədquluzadənin ev-muzeyində olub, muzeyin kollektivi və kənd sakinləri ilə görüşüb.

Tanınmış Azərbaycan ziyalısı Həmidə xanım Məmmədquluzadənin ev-muzeyi bu adlı-sanlı ziyalının mənsub olduğu ocağına - Cavanşirlər nəslinə məxsus tarixi binada yerləşir. Bu Tarixi bina Həmidə xanım Məmmədquluzadənin vəfatından sonra əvvəlcə orta məktəb, sonra musiqi məktəbi kimi fəaliyyət göstərib, 2005-ci ildən isə Ağcabədi rayon Tarix-Diyarşünaslıq Muzeyinin filialı statusunda Həmidə xanım Məmmədquluzadənin ev-muzeyinə çevrilib. Muzeyin direktoru Zeynəb Quliyevanın bu mədəniyyət ocağının tarixi, inkişaf yolu və müasir imkanları haqqında verdiyi məlumatlar muzeyin fondu və ekspozisiyasına dair dolğun təsəvvür yaradıb.

Muzeydə Həmidə xanım Məmmədquluzadənin atası, dövrünün tanınmış tarixi şəxsiyyətlərindən olan Əhməd bəy Cavanşirin (1828-1903) tərcümeyi-hal sənədləri, nadir fotoları nümayiş etdirilir, əlyazmaları qorunub saxlanılır.

Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığına, ailə üzvlərinə dair kitablar, fotolar, məktublar, xatirə əşyaları muzeyin əsas eksponatları sırasında xüsusi yer tutur.

Muzeydə Həmidə xanım Məmmədquluzadə ilə bağlı çoxsaylı şəkillər, məktublar, xatirə əşyaları və nadir əl işləri nümayiş etdirilir. Burada həmçinin Kəhrizli kəndinin tarixinə və yetirmələrinə dair materiallar da var.

Həmidə xanıma aid bir çox xatirə əşyaları, xüsusən zövqlə toxunmuş əl işləri Kəhrizli muzeyinin nadir eksponatlarındandır.

Akademik İsa Həbibbəyli muzeyin əməkdaşları, rayonun mədəniyyət işçiləri və kənd camaatı qarşısında Cəlil Məmmədquluzadə və Həmidə xanım Məmmədquluzadə münasibətləri, onların övladları, nəslin davamının sonrakı taleyi ilə əlaqədar məruzə ilə çıxış edib, suallara cavab verib. Sonra Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənovla birlikdə Həmidə xanım Məmmədquluzadə muzeyindəki xatirə otaqları və eksponatlar ilə tanış olub, bəzi tövsiyələrini və arzularını bildirib, muzeyin rəy kitabına aldığı təəssüratlar əsasında özünün müsbət fikirlərini yazıb. Muzeyin əməkdaşlarının və tədbirin iştirakçılarının birgə xatirə şəkilləri çəkilib.

Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov Həmidə xanım Məmmədquluzadənin ev-muzeyinin rolu, əhəmiyyəti və perspektiv imkanları haqqında danışıb və görüləcək işləri nəzərə çarpdırıb.

Akademik İsa Həbibbəyli son illərdə Cəlil Məmmədquluzadə və müasirləri haqqında çap olunmuş kitabları Həmidə xanım Məmmədquluzadənin ev-muzeyinə hədiyyə edib.

Sonra akademik İsa Həbibbəyli Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov və Kəhrizli kənd bələdiyyəsinin sədri Rayis Məhərrəmov ilə birlikdə Kəhrizli qəbiristanlığına gedərək, orada Əhməd bəy Cavanşirin və Cəlil Məmmədquluzadənin qardaşı, Səttarxan və Xiyabani hərəkatının fəal iştirakçısı Ələkbər Məmmədquluzadənin (1872-1922) və digər şəxslərin məzarlarını ziyarət ediblər. Tanınmış şəxsiyyətlərin məzarlarının olduğu Kəhrizli qəbiristanlığının daha da abadlaşdırılması ətrafında söhbətlər aparılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2021.- 22 sentyabr.- S.7.